# Qlobal humanitar çağırışlara növbəti dəstək



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fevralın 24-də işinə başlayan 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirakı və "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış etməsi Azərbaycan dövləti və xalqının bəşəriyyətin ən dəyərli nailiyyətlərindən biri olan humanizmə sadiqliyinin beynəlxalq aləmdə növbəti nümayişidir. Azərbaycan humanitar yardım, ehtiyacı olanlara dəstəyi və paylaşma ideyalarına sadiqliyini praktiki fəaliyyəti və əməlləri ilə sübuta yetirən dövlətdir. Bu humanist siyasət yalnız dövlət deyil, o cümlədən ölkənin ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu tərəfindən də uğurla həyata keçirilir. Fond təkcə ölkə daxilində deyil, həm də xaricdə reallaşdırdığı mütərəqqi layihələri ilə ümumdünya humanizm hərəkatında özünəməxsus yer tutmaqla qlobal dünyada Azərbaycan xalqının humanist dünyagörüşünün carçısı və təmsilçisi rolunda çıxış edir.**




## Humanitar yardım və islam həmrəyliyi

XXI əsrdə beynəlxalq humanitar fəaliyyətin əsas məqsədi insanların və təşkilatların dövlətlərarası və daha geniş çərçivədə mədəni, elmi, təhsil, sosial hədəflərə nail olmaqla yanaşı, həm də yardımlaşma, ehtiyacların ödənməsi, köməyə ümidlərin təmin edilməsi kimi bəşəri niyyətlərin reallığa çevrilməsinə yönəlib. Ər-Riyad Beynəlxalq Humanitar Forumunun qarşısında duran başlıca məram məhz xeyirxah və xoş niyyətli əməllərin həyata keçirilməsinə töhfənin verilməsindən ibarətdir. Müsəlman dünyasının mənəvi mərkəzi olan Səudiyyə Ərəbistanında belə bir forumun uğurla fəaliyyət göstərməsi, həmçinin beynəlxalq aləmdə nüfuza malik olması islam həmrəyliyi, rəhm və yardımlaşma, ictimai ehtiyaca görə səylərin birləşdirilməsi, birgə məsuliyyət kimi bəşəri anlayışların ölkələr və cəmiyyətlər tərəfindən daha həvəslə əxz olunmasına xidmət edir.

Forumun işində yerli və beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının rəhbərləri, humanitar siyasət sahəsində ixtisaslaşmış dövlət rəsmiləri və dünyaca tanınmış ekspertlər iştirak edirlər. Bu nüfuzlu tədbirin təşkil edilməsində başlıca məqsəd dünyanın, ayrı-ayrı ölkələrin, ələlxüsus da rifah halı yüksək olan dövlətlərin ictimaiyyətlərinin diqqətini qlobal və bəşəri humanitar problemlərə yönəltmək, onların çözümünə doğru körpü rolunu oynamaqdır.

Belə bir mötəbər və ali məqsədlərə xidmət edən beynəlxalq əhəmiyyətli hadisədə Heydər Əliyev Fondu və onun vitse-prezidenti Leyla Əliyevanın iştirakı Azərbaycan xalqının humanizm ideyaları və dünyagörüşünə sadiqliyi, habelə dövlətimizin sadalanan qlobal problemlərin həllində oynadığı rolun dünya birliyi tərəfindən tanınması anlamına gəlir.

## Azərbaycanın humanizm dünyagörüşünə sadiqliyi

Ölkəmiz bu məramını yalnız belə müzakirə platformalarında iştirakla deyil, əməli fəaliyyəti ilə də sübuta yetirir. Rəsmi Bakının təbii fəlakətlərin fəsadlarından əziyyət çəkən ölkələrə və xalqlara yardım aksiyalarına qoşulması, COVID-19 pandemiyası dövründə ehtiyac duyan dövlətlərə kömək göstərməsi, maliyyə yardımları ayırması, habelə Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə humanitar və mədəniyyət xarakterli aksiyalar həyata keçirməsi Azərbaycanın qlobal dünyanın ən aktual problemi olan humanizmə biganə qalmadığının bariz göstəricisidir.

Ər-Riyad şəhərində iki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun himayəsi altında, Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin təşkilatçılığı ilə keçirilən forumda münaqişələr zamanı humanitar diplomatiya, fövqəladə hallarda media və kommunikasiya strategiyası, süni intellektin humanitar yardım fəaliyyətində rolu, beynəlxalq hüquq çərçivəsində humanitar yardım sahəsində mövcud problemlər və gələcək imkanlar müzakirə edilir. Forumun işində iştirak və çıxış edən Leyla Əliyeva Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbir və layihələr barədə iştirakçılara müfəssəl məlumat verib. Azərbaycan müstəqilliyini yenidən əldə etdikdən sonra aparılan uğurlu siyasət nəticəsində humanitar yardım alan dövlətdən donor dövlətə çevrilib. Bu prosesin aparıcı qüvvəsi olan Heydər Əliyev Fondu regionun böyük qeyri-hökumət təşkilatı kimi 2004-cü ildən genişmiqyaslı humanitar layihələr həyata keçirir. Fondun vitse-prezidenti Leyla Əliyeva çıxışında təhsil, səhiyyə və sosial sahələr üzrə layihələrin beynəlxalq səviyyəni əhatə etdiyini, bu fəaliyyətin tərəfdaş təşkilatlar və ölkələr tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Leyla Əliyeva müasir dünyada iqlim dəyişiklikləri kimi böhrana diqqət çəkərək ətraf mühitin və təbiətin qorunması istiqamətində, eləcə də aclığın aradan qaldırılması kimi problemlə üzləşən ölkələrə yardım sahəsində güclərin səfərbər olmasının vacibliyini vurğulayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın könüllülük fəaliyyəti üzrə uğurlu modelə sahib olduğunu bildirərək, mövcud humanitar problemlərin həllində könüllülük proqramlarının inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Ötən ilin noyabrında Bakıda uğurla keçirilən COP29 kimi qlobal tədbirə ev sahibliyi edən Azərbaycan iqlim dəyişmələri, ekoloji problemlərin çözümü, "yaşıl dünya" naminə səylərin birləşdirilməsi üçün əlverişli platforma olmaqla yanaşı, bu istiqamətdə əməli səylərini əsirgəməyən dövlət rolunda müvəffəqiyyətlə çıxış etdiyini növbəti dəfə sərgiləməyə müvəffəq oldu. Belə məzmunlu problemlər Ər-Riyad Beynəlxalq Humanitar Forumu kimi nüfuzlu tədbirlərin də başlıca müzakirə mövzularındandır və Azərbaycanın bu gün mötəbər tədbirlərdə iştirakı həyata keçirilən siyasətin məntiqindən irəli gəlir.

## Humanitar böhranla üz-üzə olan ölkədən böhranı həll edən dövlətə çevrildi

Azərbaycan uzun illər boyu işğaldan əziyyət çəkən dövlətdir. 30 ilə yaxın müddətdə davam edən ərazilərinin beşdəbirinin qəsb edilməsi dövlətimizi və xalqımızı illər boyu humanitar fəlakət və böhranla üz-üzə qoyub. Bu müddət ərzində həyata keçirilən səmərəli dövlət siyasəti nəticəsində hazırda Azərbaycan qeyd olunan maneələri aşaraq özü humanitar sahədə ehtiyacı olan dövlətlərə yardım etməyə başlayıb. Bu baxımdan, ölkəmizin Səudiyyə Ərəbistanının evsahibliyi etdiyi bu mütərəqqi ideologiyalı diskussiya platformasında iştirakı həm də xüsusi xarakter daşıyır. Birincisi ona görə ki, vaxtilə Azərbaycanın qarşılaşdığı humanitar fəlakət illərində bizə ilk əl uzadan dövlətlərdən biri Səudiyyə Ərəbistanı və onun humanitar yardımlar həyata keçirən təşkilatları olub. İkincisi isə bu gün Azərbaycanı forumda xalqımızı humanitar böhrandan xilas etmiş Ulu Öndər Heydər Əliyevin adını daşıyan fond təmsil edir.

Azərbaycan humanitar yardım sahəsində nüfuzlu qurumlardan biri olan, bütün müsəlman aləmini təmsil edən ICESCO-nun ən fəal üzvlərindəndir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva özünün məhsuldar fəaliyyəti ilə ölkəmizin bu təşkilatdakı nüfuzunun artması istiqamətində tarixi səylər göstərmişdir. ICESCO Azərbaycanın haqlı mübarizəsinə beynəlxalq ictimai rəydə ardıcıl dəstək verən təşkilatdır. Təsadüfi deyildir ki, Azərbaycan torpaqlarının erməni işğalından qurtulmasından sonra Qarabağda və Şərqi Zəngəzurda xalqımıza məxsus mənəvi dəyərlərimiz olan məscidlərin acınacaqlı vəziyyətinə diqqət ayıran ilk qurum məhz ICESCO olmuşdur.

Azərbaycanın humanitar sahədəki fəaliyyəti yalnız aksiyalarda və layihələrdə, habelə nüfuzlu forumlarda iştirakla məhdudlaşmır. Dövlətimiz qısa zaman kəsiyində beynəlxalq nüfuz və hörmət qazanmış bir sıra humanitar gündəmli tədbirləri uğurla reallaşdırmaqla dünyanın diqqətini cəlb etməyi bacarıb. Məsələn, 2011-ci ildən etibarən mütəmadi qaydada keçirilən Bakı Beynəlxalq Humanitar Forumunu qeyd etmək olar. Bu illər ərzində forum dünyanın diqqətini multikulturalizm, dünyanı dəyişdirən müasir texnologiyalar, elmlərin konvergensiyası, biotexnologiyalar və etikanın problemləri, inkişafın iqtisadi modelinin humanitar aspektləri, sosial jurnalistika və yüksək texnologiyalar, postmodernist mədəniyyətdə ənənəvi dəyərlər sistemləri kimi müasir problemlərə və modern çağırışlara yönəltməyə müvəffəq olub.

Bakının evsahibliyi etdiyi daha bir mütərəqqi və nüfuzlu tədbir Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən ənənəvi forumdur. Forumun gündəliyində açıq cəmiyyətlərin əhatə dairəsi və əsasları, iqtisadi dayaqları, mürəkkəb vəziyyətlərə münaqişələrin həlli üsulu, davamlı inkişaf prosesinin təmin edilməsi üçün multi-idarəetmə və institusional çərçivəyə olan ehtiyac və digər mühüm məsələlərin müzakirəsi kimi ümumbəşəri mövzular durur. Humanitar və inteqrativ impulsların yaradılması ilə yanaşı, gələcəkdə beynəlxalq səviyyədə humanizm çağırışlarını aktuallaşdırmaq Bakıda bu məzmunda keçirilən tədbirlərin qarşısında duran başlıca hədəflərdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın 4-cü Ər-Riyad Beynəlxalq Humanitar Forumunda uğurlu iştirakı və çıxışı ilə dünya birliyinin diqqətini Azərbaycana yönəltməsi ölkəmizin beynəlxalq nüfuzunun artması, humanitar yardım kimi qlobal əhəmiyyətli problemin çözümü yolunda töhfələr verməsinin ictimailəşdirilməsi baxımından ciddi əhəmiyyətə malikdir. Dövlətlərin humanizm imici və reputasiyası bu kimi qlobal müzakirə platformalarında iştirakdan, beynəlxalq çağırışlara dəstək vermə qabiliyyətindən, bu istiqamətdə resurslara və potensiala malik olmasından asılıdır. Heydər Əliyev Fondunun xalqımız və dövlətimiz qarşısındakı tarixi missiyalarından biri də bu amala xidmətdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.8.